# ŞUŞA İNZİBATİ RAYONUNUN DEMOQRAFİK İNKİŞAFI

**Z.N. Eminov**
Coğrafiya elmləri doktoru, professor
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
zakir_eminov@mail.ru

Uzun illər ərzində işğal altında qalan ərazilərdən biri olan Şuşa rayonu 2020-ci ilin sentyabr-noyabr aylarında aparılan hərbi əməliyyatlar, 2023-cü ilin 19-20 sentyabr antiterror əməliyyatı prosesində azad edilmişdir. İşğal dövründə rayonun əhalisi ölkənin müxtəlif regionlarına səpələnmiş, çadır şəhərciklərində, yataq-xanalarda məskən salmış, bir qismi xarici ölkələrə miqrasiya etmişdir. Buna baxmayaraq, doğma yurdlarından didərgin düşən əhali ərazilərin işğalı dövründə də Şuşa rayonun sakinləri kimi qeydiyyatda olmuş, hətta onların şəhərlər və kəndlər, yaşayış məntəqələri üzrə qeydiyyatı aparılmışdır. Bunları nəzərə alaraq, Şuşa rayonunun demoqrafik inkişafı haqqında təhlillər aparmaq olar. Ölkənin demoqrafik inkişaf meyillərinə uyğun olaraq burada da demoqrafik inkişaf olmuşdur. Bu prosesdə müəyyən problemlər olsa da, 30 illik dövrdə rayonun demoqrafik inkişafı getmişdir. Güman etmək olar ki, əhali doğma yurdlarına qayıtdıqdan sonra davamlı demoqrafik inkişafı təmin etmək mümkün olacaqdır.

***Açar sözlər:*** *Şuşa, Qarabağ, əhali, demoqrafiya,*

Qarabağın dilbər guşəsi sayılan Şuşa rayonu Azərbaycanın tarixi-coğrafi inkişafında əhəmiyyətli yer tutmuşdur. XVII əsrin ortalarında Qarabağ xanlığının paytaxtı kimi salınan Şuşa şəhəri XIX əsr və XX əsrin əvvəlində də öz strateji və iqtisadi əhəmiyyətini saxlamışdır.

Şəhərin inzibati mərkəz olduğu Şuşa rayonu 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Xankəndi rayonuna verilmiş, 1965-ci ildə yenidən təşkil olunmuşdur. 1991-ci ildə DQMV ləğv edildikdən sonra Şuşa Azərbaycanın ümumi inzibati rayonları sırasına qoşulmuşdur.

Rayonun sahəsi 0,31 min kv.km, əhalisinin sayı 28,7 min nəfər, o cümlədən şəhər əhalisi 20,0 min nəfərdir (01.01.2023). İnzibati rayonda 1 şəhər, 1 qəsəbə və 37 kənd yaşayış məntəqəsi mövcuddur [*Azərbaycanın demoqrafik göstəriciləri, 2023* ]. Onun ərazisi Kiçik Qafqaz dağlarına aid olan Qarabağ silsiləsində yerləşir. Rayonda əhalinin məskunlaşması, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin salınması, əhalinin sayının artması və sahəsinin genişləndirilməsi, infrastruktur şəbəkəsinin qurulması üçün əlverişli şərait məhduddur. Eyni zamanda, Qarabağda erməni əhalisinin sayının çox olması, ərazilərin idarə edilməsi və sosial-iqtisadi inkişafında onların aparıcı rola malik olması, respublikanın mərkəzi hökumətinin rayona lazımi diqqət ayırmaması, rayonun inkişafı üçün zəruri iqtisadi və sosial-mədəni tədbirlərin görülməməsi əhalinin sayının zəif templə artmasına, miqrasiyaların intensiv getməsinə gətirib çıxarmışdır. Rayonun sahəsinin kiçik olması, ərazisinin XX əsrin ortalarında ləğv edildikdən sonra Xankəndi rayonuna verilməsi də onun inkişafına mənfi təsir göstərmişdir.

Cədvəl 1

Şuşa rayonunda əhalinin sayının dinamikası, min nəfər

| İllər | Əhalinin sayı (min nəfər) | İllər | Əhalinin sayı (min nəfər) |
|---|---|---|---|
| 1979 | 16,0 | 2016 | 32,8 |
| 1989 | 20,6 | 2017 | 33,4 |
| 1999 | 24,3 | 2018 | 33,8 |
| 2005 | 26,0 | 2019 | 34,2 |
| 2009 | 28,6 | 2020[1] | 22,3 |
| 2010 | 29,0 | 2021[1] | 24,6 |
| 2015 | 32,1 | 2022[1] | 26,8 |
| | | 2023[1] | 28,7 |

Mənbə: Azərbaycanın demoqrafik göstəriciləri,2022. Bakı, DSK, 2023. s. 83.

1 – Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazisindəki əhali istisna olmaqla, 2019-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasının yekun məlumatları əsasında yenidən hesablanmışdır.

Nəticə olaraq Şuşa rayonu 1993-cü ildəki işğalı ərəfəsində Azərbaycanın ən kiçik əraziyə, zəif sosial-iqtisadi bazaya və demoqrfaik potensiala malik inzibati bölgülərindən biri olmuşdur.

Rayonda əhalinin sayının artım dinamikasının təhlili də göstərir ki, bu kəmiyyətlər kiçik olması ilə fərqlənir. 1979-cu ildə Şuşa rayonunda əhalinin sayı 16,0 min nəfər olmuş, növbəti siyahıya-alınmada bu göstərici 28,8% artaraq 20,6 min nəfərə çatmışdır (cədvəl 1). Əhalinin sayının zəif templə çoxalması onun ümumi sayının az olması ilə yanaşı, Şuşa şəhərinin zəif sosial-iqtisadi bazası, onun təbii artan əhalini saxlamaq və kəndlərdən əhalini qəbul etmək potensialının olmaması və nəticədə intensiv miqrasi-yalar ilə əlaqədardır.

Sonrakı dövrlərdə də rayonda əhalinin sayı zəif templə çoxal-mışdır. Ona görə ki, 1989-1999 və 1999-2009-cu illərdə əhalinin sayının atrımı orta hesabla 17-18,0% təşkil etmışdır (cədvəl 1). 30 ildən çox müddətdə məcburi köçkün kimi yaşamasına baxmayaraq Şuşa rayonunun demoqrafik inkişafı getmişdir. 2009-2019-cu illəri əhatə edən iki siyahıyalınma arasında rayonda əhalinin sayı 5,6 min nəfər və ya 19,6% çoxalmışdır. Bununla yanaşı, işğal altındakı ərazilərdə məskunlaşan əhali nəzərə alınmadan 21,9 min nəfər əhali qeydiyyata alınmışdır [*Azərb. demo göst. 2023, s. 73*].

2019-cu ildə siyahıyaalınma keçirilməsindən sonra ölkədə əhalinin sayının dəqiqləşdirilməsi və yenidən hesablanması aparıl-mışdır. Eyni zamanda, ərazilərin işğaldan azad edilməsi, erməni əhalisinin Qarabağı tərk etməsindən sonra, ermənilər əhalinin ümumi sayında nəzərə alınmır. Bu səbəbdən 2020-ci ildə əvvəlki ilə nisbətən əhalinin sayı azalmışdır (cədvəl 1).

Hesab etmək olar ki, yaxın illərdə Şuşa rayonunun əhalisi də öz yurduna qayıda biləcək. Bu zaman rayonda əhalinin sayı ildən ilə davamlı olaraq artacaqdır.

Əhalinin sayının artımı ilk növbədə təbii artım prosesində və miqrasiyalar hesabına təmin olunur. Rayonda kənd əhalisinin sayı az olduğuna görə təbii artım da aşağı səviyyədə gedir. Şəhərlərdə bu artım daha kiçik kəmiyyətlər alır. Ona görə əhali artımının təmin edilməsi üçün bütün ölkədə demoqrafik siyasət aparılması vacibdir. Bu istiqamətdə tədbirlər minimum halda əhalinin sayının sadə formada artımını təmin etmiş olar.

2015-ci ilə nisbətən rayonda doğulan uşaqların sayı və təbii artan əhalinin sayı xeyli azalmışdır. Burada ölənlərin sayının artması da öz rolunu oynayır (cədvəl 2).

Cədvəl 2

Demoqrafik göstəricilərin dəyişməsi

| Göstəricilər | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| Əhalinin sayı (ilin sonuna, min nəfər) | 32,8 | 33,8 | 34,2 | 34,7 | 34,9 | 35,0 | 28,7 |
| Təbii artım, nəfər | 502 | 321 | 309 | 363 | 198 | 116 | 186 |
| Doğulanlar | 623 | 491 | 481 | 509 | 442 | 364 | 385 |
| Ölənlər | 121 | 170 | 172 | 146 | 244 | 248 | 199 |
| 1 yaşadək ölən uşaqların sayı, nəfər | 2 | - | 2 | 2 | 2 | 2 | 6 |
| Nikahların sayı | 244 | 178 | 199 | 197 | 123 | 167 | 186 |
| Boşanmaların sayı | 44 | 55 | 55 | 57 | 60 | 74 | 48 |
| Əhalinin hər 1000 nəfərinə | | | | | | | |
| Təbii artım | 16,0 | 9,9 | 9,4 | 10,9 | 5,9 | 3,5 | 6,7 |
| Doğulanlar | 19,9 | 15,1 | 14,6 | 15,3 | 13,1 | 10,8 | 13,9 |
| Ölənlər | 3,9 | 5,2 | 5,2 | 4,4 | 7,2 | 7,3 | 7,2 |
| 1 yaşadək ölən uşaqların sayı, hər 1000 nəfər diri doğulana | 2,4 | - | 4,2 | 3,9 | 4,5 | 5,5 | 15,6 |
| Əhalinin hər 1000 nəfərinə | | | | | | | |
| Nikahlar | 7,8 | 5,5 | 6,1 | 5,9 | 3,7 | 4,9 | 6,7 |
| Boşanmalar | 1,4 | 1,7 | 1,7 | 1,7 | 1,8 | 2,2 | 1,7 |

Mənbə: Azərbaycanın regionları 2022. Bakı, DSK, 2023. Səh. 281

2020-2021-ci illərin pandemiyası dövründə rayonda ölənlərin sayı əvvəlki illərə nisbətən xeyli yuxarı olmuşdur. Bu özünü hər 1000 nəfərə görə olan nisbi göstəricilərdə də büruzə verir. Lakin 2022-ci ildə də rayon əhalisi arasında ölüm əmsalı yüksək olaraq qalmışdır. Eyni zamanda bir yaşa qədər uşaqlar arasında da ölüm hallarının yüksək olduğunu təəssüflə qeyd etmək lazım gəlir. Bunun qarşısını almaq üçün uşaqların tibbi müayinəsinin keçirilməsi, onlara həkim nəzarətinin gücləndirilməsi istiqamətində tədbirlər görmək vacibdir. Hətta 2022-ci ildə qeydə alınan körpə ölümü əvvəlki ilə nisbətən 3,0 dəfəyə qədər yüksəkdir.

Əhalinin etnik tərkibi. 2019-cu ildə aparılmış siyahıyaalınmanın nəticələrinə görə əhalinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edir. Az sayda türklər vardır. Erməni əhalisi nəzərə alınmır (cədvəl 3).

Cədvəl 3

Əhalinin milli-etnik tərkibi*

2019-cu il əhalinin siyahıyaalınması məlumatlarına əsasən

| Millətlər | Cəmi | | Kişilər | | Qadınlar | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz |
| Cəmi | 21855 | 100,0 | 10810 | 100,0 | 11045 | 100,0 |
| azərbaycanlılar | 21820 | 99,84 | 10793 | 99,84 | 11027 | 99,84 |
| ləzgilər | 2 | 0,01 | - | - | 2 | 0,02 |
| ruslar | 3 | 0,01 | - | - | 3 | 0,02 |
| türklər | 20 | 0,09 | 11 | 0,10 | 9 | 0,08 |
| kürdlər | 6 | 0,03 | 4 | 0,04 | 2 | 0,02 |
| yəhudilər | 1 | 0,01 | 1 | 0,01 | - | - |
| digər millətlər | 3 | 0,01 | 1 | 0,01 | 2 | 0,02 |

*)Əhalinin siyahıyaalınması dövründə işğal altında olmuş ərazilərdəki əhali istisna olmaqla. Mənbə: Azərbaycanın regionları 2022, Bakı, DSK, 2023, s. 307.

Əhalinin cins tərkibi mühüm demoqrafik göstəricilərdən biridir, əhali arasında kişilər və qadınların nisbətini göstərir. Əhalinin cins tərkibi doğulan uşaqların cins tərkibindən, miqrasiyalarda

kişilər və qadınların iştirakından, ölümün cins tərkibindən, yuxarı yaş qruplarında kişilər arasında ölümün yüksək səviyyədə olmasından və onların orta ömür müddətinin aşağı səviyyədə olmasından, qadınların daha çox yaşamasından asılıdır. Son dövrlərdə ölkədə doğumun cins tərkibi oğlan uşaqlarının daha çox doğulması hesabına dəyişir.

Əhalinin cins tərkibini müəyyən edən bu proseslər Şuşa rayonuna da aiddir. Rayonda əhalinin cins tərkibi qeydiyyatda olan əhaliyə görə təhlil edilir (cədvəl 4 və 5).

Cədvəl 4

Əhalinin cins tərkibi

| Ərazi | 1999 | | 2009 | | 2016 | | 2022 | |
|---|---|---|---|---|---|---|---|---|
| | kişi | qadın | kişi | qadın | kişi | qadın | kişi | qadın |
| Ümumi | 11692 | 12648 | 13934 | 14626 | 15,9 | 16,9 | 16,9 | 18,1 |
| Şəhər | 3228 | 3595 | 10285 | 10900 | 11,5 | 12,4 | 12,2 | 13,2 |
| Kənd | 8464 | 9053 | 3649 | 3726 | 4,4 | 4,5 | 4,7 | 4,9 |

Cədvəl 5

Əhalinin cins tərkibi, faizlə

| Ərazi | 1999 | | 2009 | | 2016 | | 2021 | |
|---|---|---|---|---|---|---|---|---|
| | kişi | qadın | kişi | qadın | kişi | qadın | kişi | qadın |
| Ümumi | 48,0 | 52,0 | 48,8 | 51,2 | 48,5 | 51,5 | 48,3 | 51,7 |
| Şəhər | 47,3 | 52,7 | 48,5 | 51,5 | 48,1 | 51,9 | 48,0 | 52,0 |
| Kənd | 48,3 | 51,7 | 49,5 | 50,5 | 49,4 | 50,6 | 49,0 | 51,0 |

Mənbə: Azərbaycanın demoqrafik göstəriciləri 2015. Bakı, DSK, 2016. Səh. 88.
Azərbaycanın əhalisi 2021. Bakı, DSK, 2022. Səh. 77.

Ümumilikdə demək olar ki, təhlil aparılan 1999-cu ildən sonrakı dövrdə qadınlar əhali arasında üstünlük təşkil etmişdir. 2022-ci ilin əvvəlində kişilər əhali arasında 51,7%, qadınlar 48,3% paya malik olmuşdur. Şəhər və kənd əhalisi arasında da qadınlar mütləq say üstünlüyünə malikdir, şəhərlərdə onların xüsusi çəkisi 52,0%-ə qədər yüksəlir. Son 30 illik dövrdə Şuşa rayonunda

əhalinin cins tərkibinin dinamikasında əsaslı dəyişiklik özünü göstərmir.

Cədvəl 6

Hər 1000 nəfər kişiyə görə qadınların sayı

| Ərazi | 1999 | 2009 | 2016 | 2022 |
|---|---|---|---|---|
| Ümumi | 1081,8 | 1049,7 | 1062,9 | 1071,0 |
| Şəhər | 1113,7 | 1059,8 | 1078,3 | 1082,0 |
| Kənd | 1069,6 | 1021,1 | 1022,7 | 1042,6 |

Əhalinin cins tərkibini müəyyən edən göstəricilərdən biri də hər 1000 kişiyə görə qadınların sayıdır (cədvəl 6). 2009-cu ildən sonra keçən dövrdə rayonda hər 1000 nəfər kişiyə görə olan qadınların sayı xeyli artmışdır. Əhalinin yaş tərkibinin formalaşmasına doğum, ölüm göstəriciləri, orta ömür müddəti, qadınların kişilərə nisbətən çox yaşaması təsir edir. Müstəqilliyin ilk illərindən başlayaraq doğulan uşaqların sayının azalması əmək qabiliyyətli yaşdan kiçik əhali qrupunun azalmasına gətirib çıxardı. XX əsrin 70-80-ci illərindən 90-cı illərin ortalarına qədər təbii artımın yüksək səviyyəsi əmək qabiliyyətli yaşda əhalinin payının yüksəlməsinə imkan verir. Bu prosesləri Şuşa rayonunun qeydiyyatda olan əhalisinə də aid etmək olar. 2022-ci ilin əvvəlində rayonda 0-15 yaşlarında olan əhalinin sayı 7937 nəfər, əhali arasında payı 22,6% olmuşdur. Bu dövrdə 65 yaşdan yuxarı əhali 4204 nəfər, əhali aradında payı 12,1% təşkil etmişdir. Rayonda əmək qabiliyyətli yaşda əhalinin payı 65,3% müəyyən edilmişdir (cədvəl 7 və 8).

Cədvəl 7

Əhalinin yaş tərkibi, nəfər

| | 1999 | | | 2009 | | | 2022 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Kişi | Qadın | Cəmi | Kişi | Qadın | Cəmi | Kişi | Qadın |
| Cəmi | 24340 | 11692 | 12648 | 28560 | 13934 | 14626 | 35039 | 16935 | 18104 |
| 0-4 | 2046 | 1044 | 1002 | 2038 | 1113 | 925 | 2277 | 1213 | 1064 |
| 5-9 | 2634 | 1328 | 1306 | 2200 | 1204 | 996 | 2884 | 1546 | 1338 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 10-14 | 2753 | 1370 | 1383 | 2391 | 1211 | 1180 | 2776 | 1542 | 1234 |
| 15-19 | 2553 | 1284 | 1269 | 2803 | 1352 | 1451 | 2456 | 1272 | 1184 |
| 20-24 | 2066 | 937 | 1129 | 3013 | 1459 | 1554 | 2495 | 1265 | 1230 |
| 25-29 | 1966 | 885 | 1081 | 2655 | 1283 | 1372 | 2707 | 1213 | 1494 |
| 30-34 | 2101 | 930 | 1171 | 2071 | 1007 | 1064 | 2953 | 1326 | 1627 |
| 35-39 | 2082 | 1017 | 1065 | 1920 | 862 | 1058 | 2755 | 1254 | 1501 |
| 40-44 | 1597 | 739 | 858 | 2137 | 986 | 1151 | 2631 | 1261 | 1370 |
| 45-49 | 1020 | 544 | 476 | 2210 | 1074 | 1136 | 1945 | 905 | 1040 |
| 50-54 | 602 | 285 | 317 | 1669 | 782 | 887 | 1688 | 766 | 922 |
| 55-59 | 708 | 340 | 368 | 1011 | 507 | 504 | 1656 | 775 | 881 |
| 60-64 | 859 | 416 | 443 | 597 | 271 | 326 | 1612 | 744 | 868 |
| 65-69 | 571 | 288 | 283 | 506 | 229 | 277 | 1345 | 630 | 715 |
| 70 və yuxarı | 782 | 2,44 | 3,93 | 1339 | 594 | 745 | 2859 | 1223 | 1636 |

Mənbə: Azərbaycanın regionları 2003. Bakı, DSK, 2004. S. 586. Azərbaycanın regionları 2011. Bakı, DSK, 2012. s. 669. Azərbaycanın regionları 2021. Bakı, DSK, 2022. s. 282.

Rayonda aşağı yaş qruplarında, 25 yaşa qədər oğlan uşaqları üstünlük təşkil edir. Bu isə doğulan uşaqların arasında oğlanların payının çoxluğu ilə əlaqədardır. Digər yuxarı yaş qruplarında qadınlar çoxluğa malikdir. 1999-cu ildə Şuşa rayonunda əmək qabiliyyətli yaşdan kiçik əhali qrupunun xüsusi çəkisi 30,54%, əmək qabiliyyətli yaşdan böyük əhalinin payı 5,57% olmuşdur Bu dövrdə əmək qabiliyyətli yaşda olarlar 63,89% paya malik idi.

Cədvəl 8

Əhalinin yaş tərkibi, faiz

| | 1999 | | | 2009 | | | 2022 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Kişi | Qadın | Cəmi | Kişi | Qadın | Cəmi | Kişi | Qadın |
| Cəmi | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| 0-4 | 8,41 | 8,93 | 7,92 | 7,14 | 7,99 | 6,32 | 6,5 | 7,2 | 5,9 |
| 5-9 | 10,82 | 11,36 | 10,33 | 7,70 | 8,64 | 6,81 | 8,2 | 9,1 | 7,4 |
| 10-14 | 11,31 | 11,72 | 10,93 | 8,37 | 8,69 | 8,07 | 7,9 | 9,1 | 6,8 |
| 15-19 | 10,49 | 10,98 | 10,03 | 9,81 | 9,70 | 9,92 | 7,0 | 7,5 | 6,5 |
| 20-24 | 8,49 | 8,01 | 8,93 | 10,55 | 10,47 | 10.62 | 7,1 | 7,5 | 6,8 |
| 25-29 | 8,08 | 7,57 | 8,55 | 9,30 | 9,21 | 9,38 | 7,7 | 7,2 | 8,3 |
| 30-34 | 8,63 | 7,95 | 9,26 | 7,25 | 7,23 | 7,27 | 8,4 | 7,8 | 9,0 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 35-39 | 8,55 | 8,70 | 8,42 | 6,72 | 6,19 | 7,87 | 7,9 | 7,4 | 8,3 |
| 40-44 | 6,56 | 6,32 | 6,78 | 7,48 | 7,08 | 7.77 | 7,5 | 7,5 | 7,6 |
| 45-49 | 4,19 | 4,65 | 3,76 | 7,74 | 7,71 | 6,06 | 5,6 | 5,3 | 5,7 |
| 50-54 | 2,47 | 2,44 | 2,51 | 5,84 | 5,61 | 3,45 | 4,8 | 4,5 | 5,1 |
| 55-59 | 2,91 | 2,91 | 2,91 | 3,54 | 3,64 | 2,23 | 4,7 | 4,6 | 4,9 |
| 60-64 | 3,53 | 3,56 | 3,50 | 2,09 | 1,94 | 1,89 | 4,6 | 4,4 | 4,8 |
| 65-69 | 2,35 | 2,46 | 2,24 | 1,77 | 1,64 | 2,42 | 3,90 | 3,7 | 3,9 |
| 70 və yuxarı | 3,22 | 2,44 | 3.93 | 4,7 | 4,26 | 2,67 | 8,2 | 7,2 | 9,0 |

Mənbə: Azərbaycanın regionları 2003. Bakı, DSK, 2004. s. 586. Azərbaycanın regionları 2011. Bakı, DSK, 2012. s. 669. Azərbaycanın regionları 2021. Bakı, DSK, 2022. s. 282.

2009-cu ildə bu göstəricilər müvafiq olaraq aşağıdakı kimi dəyişmişdir: əmək qabiliyyətli yaşdan kiçik əhali qrupunun payı 23,21%, əmək qabiliyyətli yaşdan böyük əhali 6,47%, əmək qabiliyyətli yaşda olanlar 70,32% olmuşdur.

Verilən rəqəmlər göstərir ki, 15 yaşa qədər uşaqların payı azalmaqda davam edir, 65 yaşdan yuxarı əhalinin payı yüksəlir. 20 yaşa qədər qızların əhali arasında xüsusi çəkisi ciddi şəkildə aşağı düşür.

Nikahlar demoqrafik vəziyyətin öyrənilməsi zamanı təhlil edilən əsas göstəricilərdən biridir. Ölkənin regionlarında baş verən sosial-mədəni, iqtisadi proseslər, əhalinin mənzillərlə təminatı, təhsil səviyyəsi, məşğulluğu, şəhərlərdə və ya kəndlərdə yaşaması nikahlar və boşanmalara təsir göstərən əsas amillərdir.

2021-ci ildə Şuşa rayonunda 167 nikah qeydə alınmış, hər 1000 nəfərə görə nikah əmsalı 4,9 olmuşdur, rayonda 74 boşanma olmuş, onun nisbi əmsalı 2,2 səviyyəsində müəyyən edilmişdir (Cədvəl 2). Əhalinin mütləq sayına uyğun olaraq nikahlar və boşanmaların əsas hissəsi şəhər əhalisinin payına düşür. 2020-ci ildə baş verən pandemiya ilə əlaqədar nikahlar xeyli azalmışdır.

Ümumilikdə 2005-ci ildən sonrakı dövrdə rayonda nikahların sayı az dəyişmişdir. Lakin boşanmaların mütləq sayı 3 fədəyə qədər çoxalmışdır. Onun nisbə kəmiyyətlərində çoxalma 2,0 dəfəyə qədərdir.

Boşanmalar həm şəhər əhalisi, həm də kənd əhalisi arasında yüksək templə çoxalır. Bu isə cəmiyyətin inkişafı üçün ciddi təhlükə səviyyəsinə çatmaq deməkdir. Bunu nəzərə alaraq ciddi tədbirlərin görülməsi vacibdir.

Miqrasiyalar müxtəlif səbəblərdən baş verir. Az hallarda təbii-coğrafi səbəblərdən əhali öz yurdunu tərk edir (təbii fəlakətlər, əlverişsiz şərait, su və ya torpaq ehtiyatlarının məhdudluğu və s.).

Miqrasiyalar siyasi-inzibati, sosial-iqtisadi, demoqrafik və hərbi-siyasi, milli-etnik münaqişələr əhəmiyyətli rol oynayır.

XX əsrin sonu – XXI əsrin əvvəllərində Qarabağda milli-etnik münaqişələrin başlanması az vaxtda bütün azərbaycanlı əhalinin doğma yurdlarından didərgin düşməsi ilə nəticələndi. 1992-ci ilin mayında Şuşa şəhəri də daxil olmaqla bütün rayonun əhalisi məcburi köçkün vəziyyətinə düşdü və respublikanın ayrı-ayrı ərazilərinə paylandı.

Cədvəl 9

Rayonda ümumi və təbii artım artım, miqrasiya saldosu, min nəfər

| Dövrlər | Ümumi artım | O cümlədən | |
|---|---|---|---|
| | | Təbii | Miqrasiya saldosu |
| 1990-1995 | -1,3 | 0,3 | -1,6 |
| 1996-2000 | 0,3 | 0,3 | 0,0 |
| 2001-2005 | 1,8 | 1,1 | 0,7 |
| 2006-2010 | 3,0 | 2,0 | 1,0 |
| 2011-2015 | 3,1 | 2,168 | 0,972 |
| 2016-2020 | 2,1 | 1,602 | 0,498 |

Burada miqrasiya prosesləri Şuşa rayonunun qeydiyyatda olan əhalisi üzrə aparılır. 1990-cı ildən başlayaraq aparılan qeydiyyat

göstərir ki, milli-etnik münaqişənin ilkin dövründə mənfi saldo olmuşdur (Cədvəl 9). Köçkün düşən əhalinin yerləşməsində problemlər yaranması mənfi saldoya gətirib çıxarmışdır.

Cədvəl 10

Ümumi və təbii artım artım, miqrasiya saldosu, nəfər

| İllər | Ümumi artım | Təbii artım | Miqrasiya saldosu |
|---|---|---|---|
| 2011 | 600 | 439 | 161 |
| 2012 | 600 | 373 | 227 |
| 2013 | 600 | 402 | 198 |
| 2014 | 600 | 452 | 148 |
| 2015 | 700 | 502 | 198 |
| 2016 | 600 | 411 | 189 |
| 2017 | 400 | 321 | 79 |
| 2018 | 400 | 309 | 91 |
| 2019 | 500 | 363 | 137 |
| 2020 | 200 | 198 | 2 |
| 2021 | 100 | 116 | -16 |

Mənbə: Azərbaycanın demoqrafik göstəriciləri 2021. Bakı, DSK, 2022. s. 82, 134.

1990-1995-ci illərdə rayonun əhalisi miqrasiya hesabına 1,6 min nəfər azalmışdır. Sonrakı dövrlərdə əhalinin sayı miqrasiya hesabına artmışdır.Cədvəldə 5 illik dövrlər üzrə əhalinin sayının artımı, təbii artım və onların fərqi kimi miqrasiya saldosu göstərilir. Son dövrlərdə rayonda təbii artım davamlı olaraq aşağı düşür. 2019-2021-ci illərdə onun kəmiyyəti kəskin azalmışdır (Cədvəl 9 və 10). 2021-ci ildə əhalinin sayı təbii artım hesabına 116 nəfər artmış olsa da, əhalinin sayı cəmi 100 nəfər artmışdır, az sayda əhalinin miqrasiya hesabına azaldığını görmək olur.

Şuşa rayonunun əhalisi məcburi köçkün vəziyyətində yaşasa da, qeydiyyatda olan əhalinin hazırkı məşğulluq quruluşunun müəyyən edilməsi vacibdir. Bunu nəzərə alaraq rayonun əhalisinin məşğulluq göstəricilərinin qeydiyyatı aparılır. Rayon əhalisinin

18,1 min nəfəri iqtisadi fəal əhalidir (cədvəl 11). Onların 16,7 min nəfər məşğul olur, əhalinin az bir hissəsi muzdla çalışır.

Cədvəl 11

Rayonun əmək bazarının göstəriciləri

| Göstəricilər | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| İqtisadi fəal əhalinin sayı, min nəfər | | 16,6 | 17,1 | 17,2 | 17,4 | 17,4 | 18,1 |
| Məşğul əhalinin sayı, min nəfər | 13,5 | 15,6 | 16,1 | 16,1 | 16,3 | 15,8 | 16,7 |
| Muzdlu işçilərin sayı, min nəfər | 2,5 | 2,3 | 2,1 | 2,0 | 3,9 | 3,3 | 2,0 |
| Muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı, manat | | 277,9 | 296,0 | 486,4 | 353,2 | 410,2 | 542,0 |

Mənbə: Azərbaycanın regionları 2021. Bakı, DSK, 2022. s. 285.

Qeyd etmək lazımdır ki, aparılan hesablamaların müxlifliyi açıq şəkildə özünü göstərir. Siyahıyaalınma məlumatları ilə cari hesablamalar arasında müəyyən fərqlər özünü göstərir.

2009-cu il siyahıyaalınma məlumatlarına əsasən rayon əhalisinin məşğulluq strukturu cədvəldə verilir (cədvəl 12). Əhalinin böyük əksəriyyəti xidmət sahələrində çalışır (27,9%). Sonrakı yerlərdə kənd təsərrüfatı, meşə təsərrüfatı və ovçuluq (18,50%), tikinti (17,74%) sahələri gəlir. Sənayedə məşğulluq aşağı səviyyədə qeydə alınmışdır.

Cədvəl 12

2009-cu ildə məşğul əhalinin iqtisadi fəaliyyət növləri bölgüsündə sayı, nəfər

| | Məşğul əhalinin sayı | |
|---|---|---|
| | nəfər | faizlə |
| Ümumi sayı | 9681 | 100 |
| Kənd təsərrüfatı, ovçuluq, meşə təsərrüfatı | 1791 | 18,50 |
| Sənaye | 552 | 5,70 |
| Tikinti | 1717 | 17,74 |

| | | |
|---|---|---|
| Nəqliyyat | 814 | 8,41 |
| Xidmət | 4191 | 43,29 |
| Digər | 616 | 6,36 |

Mənbə: 2009-cu ilin səyahıyaalınma məlumatları

2020-ci ilin sonu üçün DSK inzibati rayonda əhalinin məşğulluq strukturu üzrə məlumatlar vermişdir. 2009-cu ildən sonra keçən dövrdə rayonda məşğul əhalinin sayı 6,1 min nəfər (38,7%) artmışdır.

Cədvəl 13

2020-ci ilə məşğul əhalinin iqtisadi fəaliyyət növləri bölgüsündə sayı, min nəfər, (ilin sonuna)

| | Azərbaycan Respublikası | Qarabağ iqtisadi rayonu | Şuşa rayonu |
|---|---|---|---|
| Cəmi | 4876,6 | 392,0 | 15,8 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 1771,9 | 191,0 | 0,7 |
| Sənaye | 356,6 | 14,5 | 1,1 |
| Mədənçıxarma sənayesi | 40,1 | 0,2 | 0,0 |
| Emal sənayesi | 258,3 | 12,4 | 1,1 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 28,3 | 1,1 | 0,0 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 29,9 | 0,8 | 0,0 |
| Tikinti | 357,5 | 29,3 | 3,0 |
| Nəqliyyat, rabitə və anbar təsərrüfatı | 264,1 | 10,1 | 0,5 |
| Təhsil | 380,1 | 32,8 | 1,4 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 690,5 | 53,4 | 4,7 |
| Xidmət sahələri | 1055,9 | 60,9 | 4,4 |

Əvvəlki illərdə olduğu kimi 2020-ci ildə də rayon əhalisinin məşğulluq strukturunda xidmət sahələri aparıcı yeri tutur (27,9%). Təhsil, ticarət, nəqliyyat vasitələrinin təmiri sahələri ilə birlikdə bu göstərici 66,4%-ə yüksəlir. Bu isə ölkə üzrə olan göstəricilərə nisbətən xeyli yuxarıdır. Cədvəllərdə Azərbaycan və Qarabağ iqtisadi

rayonu üzrə göstəricilər müqayisəli şəkildə verilir (cədvəl 13 və 14). Şuşa rayonunda əhali arasında tikinti sektorunda məşğulluq Azərbaycan üzrə orta göstəricilərdən yüksəkdir (19,0%). Şəhər əhalisinin çox olması ilə əlaqədar kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində əhalinin məşğulluğu aşağı səviyyədədir. Lakin sənaye sahələrində, əsasən də emal sənayesində məşğul əhalinin payının yuxarı olduğunu demək olar (7,0%).

Cədvəl 14

2020-ci ilə məşğul əhalinin iqtisadi fəaliyyət növləri bölgüsündə payı, faizlə, (ilin sonuna)

| | Azərbaycan Respublikası | Qarabağ iqt. ray. | Şuşa rayonu |
|---|---|---|---|
| Cəmi | 100,0 | 100,0 | 100,0 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 36,3 | 48,7 | 4,4 |
| Sənaye | 7,3 | 3,7 | 7,0 |
| Mədənçıxarma sənayesi | 0,8 | 0,05 | 0,0 |
| Emal sənayesi | 5,3 | 3,2 | 7,7 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 0,6 | 0,3 | 0,0 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 0,6 | 0,2 | 0,0 |
| Tikinti | 7,3 | 7,5 | 19,0 |
| Nəqliyyat, rabitə və anbar təsərrüfatı | 5,4 | 2,6 | 3,2 |
| Təhsil | 8,0 | 8,4 | 8,8 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 14.1 | 13,6 | 29,7 |
| Xidmət sahələri | 21,6 | 15,5 | 27,9 |

Beləliklə, Şuşa rayonunda əhalinin məşğulluğu özünəməxsus əlamətləri ilə fərqlənir, Qarabağ iqtisadi rayonu və ölkə üzrə göstəricilərdən fərqli xüsusiyyətlərə malikdir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıyaalmasının yekunları. I hissə. Əhalinin sayı, cins-yaş tərkibi. Bakı: ДSK, 2000, 565 c.

2. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009-cu il. Statistik məcmuə. XIII cild. Məşğul əhalinin iqtisadiyyatın sahələri üzrə bölgüsü. Bakı: DSK, 2011, 725 s.
3. Azərbaycan Respublikası əhalisinin 2009-cu il siyahıyaalmasının yekunları. XIX cild. Əhalinin milli mənsubiyyətinə görə bölgüsü. Бакı: DSK, 2011, 629 s.
4. Azərbaycan Respublikası əhalisinin siyahıyaalması. 2009-cu il. I cild. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. Bakı: DSK, 2010. 629 s.
5. İnzibati ərazi bölgüsü təsnifatı, 2019. Bakı: DSK, 2020, 118 s.
6. Şuşa inzibati rayonu: təbii-coğrafi şərait və iqtisadi inkişaf potensialı. "Region-Press" MMC nəşriyyatı. Bakı: 2022. 284 s.
7. Qarabağ və Şərqi Zəngəzurun coğrafiyası: təbii-coğrafi şərait və sosial-iqtisadi inkişaf potensialı. Bakı: Optimist MMC, 2021, 536 s.
8. Azərbaycan Respublikasında kəndlərin demoqrafik inkişafı və kənd əhalisinin məskunlaşması problemləri. Bakı: 2021. OPTİMİST MMC çap mərkəzi. 552 s.
9. Azərbaycan Respublikasının inzibati-ərazi bölgüsü (2013-cü il 1 aprelə olan vəziyyətə görə). Bakı: 2013, 487 s.
10. Azərbaycanın demoqrafik göstəriciləri 2022. Bakı: DSK, 2023, 593 s.
11. Azərbaycan Respublikasinin işğaldan azad edilmiş ərazilərinin 2022-2026-ci illər üzrə bərpasi və dayaniqli inkişafi Dövlət Proqramı. Bakı: 2021. İqtisadiyyat Nazirliyi. 105 s.
12. Azərbaycan Respublikasinin işğaldan azad edilmiş ərazilərinə böyük qayidişa dair I Dövlət Proqrami. Bakı: 16 noyabr 2022.
13. Azərbaycan Respublikası. Coğrafi Atlas. Bakı: BKF. 2018, 207 s.
14. Azərbaycanın regionları, 2022. Bakı: DSK, 2023. 835 s.
15. Azərbaycan Respublikasının coğrafiyası. II cild. İqtisadi, sosial və siyasi coğrafiya. Bakı: 2015, 327 s.
16. Azərbaycan Respublikasının coğrafiyası. III cild. Regional coğrafiya. Bakı: 2015, 400 s.

## DEMOGRAPHIC DEVELOPMENT OF THE SHUSHA ADMINISTRATIVE DISTRICT

Shusha administrative district, which is one of the occupied territories for many years, was liberated during the military operations conducted in September-November 2020 and the anti-terrorist operation of September 19th-20th, 2023. During the occupation, the population of the district was scattered in different regions of the country, settled in tent cities, dormitories, and some of them migrated to foreign countries. Despite this, the population displaced from their homelands were registered as residents of Shusha district even during the occupation of the territories, and even their registration was carried out by cities, villages, settlements. Taking these into account, it is possible to analyze the demographic development of the Shusha district. In accordance with the country's demographic development trends, there was a demographic development in this area as well. Although there are certain problems in this process, the demographic development of the region has been going on for 30 years. It can be assumed that after the population returns to their native land, it will be possible to ensure sustainable demographic development.